BEYNƏLXALQ
MÜNASİBƏTLƏRİN
TƏHLİLİ
MƏRKƏZİ

TƏHLİL

# Erməni diasporunun Nikol Paşinyanın 22 may tarixli bəyanatına reaksiyası

Roza Bayramlı

Mirza İbrahimov 8, Baku, AZ1005, Azerbaijan,
(+994 12) 596-82-39, (+994 12) 596-82-41
E-mail: info@aircenter.az, www.aircenter.az

9 İYUN 2023

# ERMƏNİ DİASPORUNUN NİKOL PAŞİNYANIN 22 MAY TARİXLİ BƏYANATINA REAKSİYASI

22 may 2023-cü il tarixində Ermənistanın baş naziri Nikol Paşinyan hökumət binasında qırxa yaxın media nümayəndəsinin iştirakı ilə mətbuat konfransı keçirərək Ermənistan Respublikasının Qarabağ regionu daxil olmaqla Azərbaycanın 86.6 min kv. km olan ərazi bütövlüyünü tanımalı olduğunu deyib və bununla yanaşı qeyd edib ki, Bakı ilə Xankəndi arasında  "birbaşa dialoq" qurulmalıdır. N.Paşinyan vurğulayıb ki, Ermənistanın təhlükəsizliyi yalnız bütün qonşu ölkələrlə münasibətlərin tənzimlənəcəyi halda tam təmin olunacaq[1]. Ermənistan baş nazirinin sözügedən açıqlaması ermənilər arasında rezonans doğurub.

İlk növbədə Azərbaycanın Qarabağ regionunda ermənilər tərəfindən yaradılmış qondarma rejimin "parlament nümayəndələri" sözügedən bəyanata etiraz ediblər. Etiraz bəyanatında bildirilib ki, baş nazir Nikol Paşinyanın qondarma rejimin "suverenliyini" və orada məskunlaşmış ermənilərin "öz müqəddəratını təyin etmə hüququnu" inkar edən heç bir bəyanat, o cümlədən məsələ ilə bağlı tərtib olunacaq hər hansı sənəd qəbul edilməyəcək[2]. Ermənistanın sabiq prezidentləri Serj Sarkisyan və Robert Koçaryan sözügedən etiraz bəyanatını dəstəkləyəcək açıqlama ilə çıxış ediblər.

Ermənistanın Milli Assambleyasında müxalif "Hayastan" fraksiyasının təşəbbüsü ilə baş tutmuş növbədənkənar iclas zamanı N.Paşinyanın sözügedən bəyanatı müzakirə edilib və baş nazirin açıqlaması qiymətləndirilib. Milli Assambleyanın spikeri Alen Simonyan (Alen Simonyan) bəyanatı dəstəkləyib və baş nazirlə tam razı olduğunu bildirib. Hakim fraksiyanın başçısı Artur Hovhannisyan (Artur Hovhannisyan) da baş naziri dəstəkləyərək qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən tanınması erməni əhalinin hüquq və təhlükəsizliyinin təmin olunmasına heç bir əngəl törədə bilməz.

Müxalif fraksiyalar isə, baş naziri tənqid edərək, onun bu cür açıqlama verməklə qondarma rejimi və hətta Ermənistanı Azərbaycana "könüllü verməsi" kimi qiymətləndiriblər. Ermənistanın sabiq

---

[1] "Состоялась пресс-конференция премьер-министра Республики Армения Никола Пашиняна", 22.05.2023, https://www.primeminister.am/ru/interviews-and-press-conferences/item/2023/05/22/Nikol-Pashinyan-Press-Conference/

[2] ""No power has the right to change the status of the NKR": reaction to Pashinyan's statement", 24.05.2023, https://jam-news.net/reaction-to-pashinyans-statement/

xarici işlər naziri Vardan Oskanyan da eyni fikir səsləndirib, həmçinin Ermənistanın öz ərazilərini Azərbaycana "anklav" kimi verəcəyini iddia edib[3].

Bəyanata erməni diaspor təşkilatları və nümayəndələri də reaksiya veriblər. Belə ki, iyun ayın 1-də ABŞ-ın Kaliforniya ştatının Los Anceles əyalətinin Qlendeyl şəhərində erməni icmasının bir çox nümayəndəsi etiraz aksiyası keçiri.[4] ***Amerikada Erməni Apostol, Katolik və İncil kilsələrinin*** liderləri ABŞ prezidenti Co Baydenə birgə məktub ünvanlayıb, onu Rusiya sülhməramlı kontingentinin (RSK) müvəqqəti nəzarəti altında olan Azərbaycanın Qarabağ bölgəsində yaşayan "demokratik" rejimə alışmış 120 min xristian ermənininin Azərbaycanın hakimiyyəti altına keçməməsi üçün dəstək olmağa çağırıblar[5]. ***Amerika Erməni Milli Komitəsi (ANCA)*** də buna oxşar bəyanatla çıxış edib, qondarma rejimin "demokratiyasına" öyrəşmiş xristian erməni xalqının Azərbaycan Respublikasının tərkibində yaşaya bilməcəyəni bəyan ediblər[6].

Fransa və Cənubi Amerika Erməni Milli Komitələri də baş naziri tənqid ediblər. ***Cənubi Amerika ölkələrin Erməni Milli Şurasının*** başçısı Aram Muratyan bildirib ki, baş nazirin ifadəsi həqiqətə uyğun deyil və münaqişənin sülh yolu ilə həlli prosesini aparan beynəlxalq təşkilatlarla əldə edilmiş razılıqlara "ziddir". ***Fransa Erməni Milli Komitəsinin (CDCA)*** nümayəndələri isə baş nazirin bu mövqeyinin ermənilərin Azərbaycanın Qarabağ regionu uğrunda mübarizəsinə mənfi təsir edəcəyinə inandıqlarını bildiriblər[7]. Bu təşkilatlara ***Yunanıstan Erməni Milli Komitəsi*** də qoşulub[8].

***Argentina Respublikasının Erməni İnstitutları (Instituciones Armenias de la República Argentina)*** da baş naziri tənqid edən bəyanatla çıxış ediblər. Erməni Mədəniyyət Birliyi (Unión Cultural Armenia) və "Şarüm" Erməni Mədəniyyət Mərkəzi (Unión Cultural Armenia Sharyum) istisna olmaqla Argentinada ermənilərinə məxsus bütün təşkilatlar etiraz bəyanatını dəstəkləyib. Oxşar bəyanat Argentinada erməni kilsəsinin nümayəndəliyi tərəfindən də qəbul edilib.[9]

---

3 Ibid
4 "Los Angeles County Armenians stage protest", 02.06.2023, https://news.am/eng/news/763399.html
5 "Leaders of Armenian churches in US call on Biden to oppose any attempt to include Karabakh in Azerbaijan", 01.06.2023, https://news.am/eng/news/763133.html
6 https://twitter.com/anca_dc/status/1661842377433030662?s=46&t=aPetz7HGB1MQkglh-GwHNw
7 https://t.me/reartsakh/17567
8 https://t.me/reartsakh/17568
9 IARA rechazó la decisión de Nikol Pashinyan de reconocer a Artsaj como parte de Azerbaiyán y pidió a Argentina que apoye el "reclamo del pueblo armenio de Artsaj a su autodeterminación", 27.05.2023,

***Avropa Erməni Milli Komitəsi (EAFJD)*** də məsələ ilə bağlı bəyanat yayıb. Avropanın 14 ölkəsində məskunlaşmış erməni icmalarını birləşdirən təşkilatın bəyanatında qeyd edilib ki, nə Ermənistan, nə də digər ölkənin lideri qondarma rejimin "gələcəyinə" dair heç bir qərar verə bilməz. Qeyd edilir ki, əgər erməni əhalisi Azərbaycanın birbaşa hakimiyyəti altında keçərsə, onlara qarşı "etnik təmizləmə" qaçılmazdır[10]. Oxşar bəyanat ***Böyük Britaniya Erməni Milli Komitəsi*** tərəfindən də yayılıb. Təşkilat nümayəndələri növbəti qondarma "erməni soyqırımından qorxduqlarını" bildiriblər[11].

***Kanada Erməni Milli Komitəsi*** baş nazirin son açıqlamalarının sülh prosesinə, xalqın iradəsinə və Helsinki Yekun Aktında təsbit olunmuş prinsiplərinə xələl gətirdiyini bildirib[12].

***Almaniya Ermənilərinin Mərkəzi Komitəsi (Zentralrat der Armenier in Deutschland)*** Azərbaycanın Qarabağ regionunda ermənilər tərəfindən yaradılmış qondarma rejimin "parlamentinin" bəyanatını dəstəkləyib, Nikol Paşinyanın Azərbaycanın ərazi bütövlüyünün tanımasının Ermənistan Konstitusiyasına zidd olmasını vurğulayıb. Təşkilat nümayəndələri bildiriblər ki, ermənilərin Qarabağ uğrunda mübarizəsi ancaq dünya ermənilərin birləşməsi şəraitində mümkün olacaq[13].

***İsveçdə Erməni Assosiasiyaları Birliyinin (Armeniska riksförbundet i Sverige (ARS))*** nümayəndələri də açıqlama yayaraq N.Paşinyanın bəyanatının "insanların öz müqəddəratını təyin etmə və öz suverenliyini və beynəlxalq siyasi statusunu sərbəst seçmək hüququ" üzrə beynəlxalq prinsiplərə zidd olduğunu iddia ediblər. Bundan başqa, təşkilat nümayəndələri inanırlar ki, baş nazirin bu açıqlaması münaqişənin sülh yolu ilə həll olunmasına maneə yaradacaq.[14]

---

https://www.diarioarmenia.org.ar/iara-rechazo-la-decision-de-nikol-pashinyan-de-reconocer-a-artsaj-como-parte-de-azerbaiyan-y-pidio-a-argentina-que-apoye-el-reclamo-del-pueblo-armenio-de-artsaj-a-su-autodeterminacion/

[10] https://t.me/reartsakh/17572

[11] https://t.me/reartsakh/17577

[12] https://t.me/reartsakh/17573

[13] Germany Armenians' council: Unite for Karabakh self-determination right, Armenia sovereign territories' protection, 02.06.2023, https://news.am/eng/news/763358.html

[14] "Union of Armenian Associations in Sweden strongly condemns PM Pashinyan's May 22 statement", 02.06.2023, https://news.am/eng/news/763355.html

***Bolqarıstanda Erməni icması*** da məsələ ilə bağlı tənqidi açıqlama yayıb. Təşkilatın nümayəndələri dünya ermənilərinə üz tutaraq qondarma rejimin "suverenliyini" dəstəkləməyə çağırıb[15].

Rusiyada yaşayan ermənilər də prosesdən geri qalmayıblar. İkinci Qarabağ müharibəsindən dərhal sonra Ermənistan hakimiyyətini fəal tənqid edən ***Rusiya ermənilərinin Birliyi (Союз армян России)*** 24 may tarixində yaydığı geniş bəyanatda baş nazirin bütün fəaliyyətini kəskin tənqid edib, onu rəsmi Bakının siyasətinə "uyğunlaşaraq" erməniləri "yeni müharibəyə" doğru aparmaqda günahlandırıb, qondarma rejimin əhalisinə dəstəyini ifadə edib.[16]

***Nəticə***

Beləliklə, erməni diasporu hər zaman olduğu kimi separatçı rejimi dəstəkləyir və Ermənistan-Azərbaycan sülh prosesinə maneə törətməyə çalışır. Diaspor tərəfindən yayılan bəyanatlarda istifadə olunmuş bir neçə "tezis", - o cümlədən *Nikol Paşinyanın Azərbaycan Respublikasının sərhədlərini tanımasının Ermənistanın Konstitusiyası və beynəlxalq hüquq normalarına "zidd" olması, xristian ermənilərin Azərbaycanın tərkibində yaşaya bilməyəcəyi, qondarma rejimin "demokratiyasına" öyrəşmiş erməni xalqının "demokratik olmayan" Azərbaycana uyğunlaşa bilməməsi, Qarabağda məskunlaşmış erməni icmasının "etnik təmizləmə və soyqırımına" məruz qalması "riski"* və s. da bunu deməyə əsas verir. Bu bəhanələr əsassız olsa da, diaspor nümayəndələri onlardan fəal istifadə edir, yaşadığı dövlətlərdə rəsmi şəxsləri və əhalini, eləcə də Ermənistan vətəndaşlarını sözügedən ideyalara inandırmağa çalışır. Lakin son hadisələr göstərir ki, erməni diasporu fəal olsa da, regionda baş verən proseslərə güclü təsir edə bilmir. Həmçinin, diaspor regionda davamlı sülhün bərqərar olmasının Ermənistan xalqına müsbət təsirini nəzərə almır. Çağırışlara baxmayaraq, göründüyü kimi, Ermənistan hakimiyyəti baş naziri dəstəkləyir və sülh prosesində baş nazirin verdiyi istənilən qərarın xalqın dəstəyini alması ehtimalı yüksəkdir.

**Müəllif: Roza Bayramlı, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin məsləhətçisi**

---

[15] "Armenian community of Bulgaria rejects Armenia's position on Artsakh issue", 03.06.2023, https://news.am/eng/news/763545.html

[16] "Заявление Союза армян России: Ни один из руководителей Армении не запятнал себя и свой народ таким позором и бесчестием, как Пашинян", 24.05.2023, https://www.yerkramas.org/article/191066/zayavlenie-soyuza-armyan-rossii-ni-odin-iz-rukovoditelej-armenii-ne-zapyatnal-sebya-i-svoj-narod-takim-pozorom-i-beschestiem--kak-pashinyan